Xalq qəzeti.- 2024.- 26 aprel, № 84.- S.12.

**Nənələrin yadigarı**

# İlmə-ilmə toxunanlar ilim-ilim itməsin!

**–Anam və atam Şəkidə xalq yaradıcılığı sahəsində ən məşhur müəllimlər idilər. Onlar Şəkidə 8 və 19 nömrəli məktəblərdə əmək, rəsm və rəsmxət müəllimi kimi uzun illər işləyiblər. Anam şəhər pionerlər evində yaradılan xalq yaradıcılığı məktəbində təkəlduz sənətini öyrədən dərnəyə rəhbərlik edirdi. Məktəbdə fəaliyyət göstərən həmin dərnək çox böyük işlər görürdü və orta məktəbin bütöv bir mərtəbəsi tələbələrin əl işləri, keramika, boyakarlıq, meyvə toxumları ilə hazırlanmış tablolardan ibarət sərgi salonunu, muzeyi xatırladırdı. O vaxt Şəkiyə gələn əcnəbi qonaqların demək olar ki, hamısına həmin əl işlərini göstərərdilər, - deyə təkəlduz ustası Mehriban Xəlilzadə deyib.**



O, Şəkidə sənətkarlar ailəsi kimi tanınan Əlmahir Əliyev və Arifə Məmmədovların ocağında dünyaya göz açıb. Atası Ə.Əzimzadə adına Rəssamlı məktəbini bitirmişdi, anası Arifə xanım isə tikməçi idi. Belə bir ailədə doğulan Mehribanın lap erkən yaşlarından sənətə böyük məhəbbəti yaranıb. Arifə xanım iynəni yerə qoyan kimi o götürür, yavaş-yavaş bədii tikmə sənətinə yiyələnirdi. O, ilk işlərini ərsəyə gətirəndə 9 yaşı tamam olmamışdı.

"Anam 1994-cü ildə UNESCO-nun Pakistanda keçirdiyi İslam ölkələrinin incəsənət festivalında öz tikmələri ilə iştirak edib, tikmələri Türkiyə, ABŞ, Niderland, Macarıstan, Pakistan, İran və digər ölkələrdə keçirilən sərgilərdə nümayiş olunub. "Nyu-York tayms" qəzetində haqqında məqalə və 2000-ci ildə ABŞ-da incəsənət əsərlərinin qlobal kolleksiya kataloqunda əl işləri dərc olunub. Onun yüzdən çox tələbəsi var idi. Bu gün Şəkidə təkəlduzla məşğul olanlar ya anamın tələbəsi, ya da tələbəsinin öyrətdikləri və ya övladlarıdır. Onun tələbələrindən biri də mən olmuşam", - deyə Mehriban Xəlilzadə bildirib.

Zərif sənətin izinə düşən tikməçi rəssam bu işin çox böyük zəhmət, diqqət, həssaslıq və səbir tələb etdiyini söyləyir: "Tikmə eskizin çəkilməsindən başlayır. Bundan sonra ucu qarmaq formasında olan iynə ilə naxışın ipək, pambıq, yun, atlas və digər saplarla parçaya köçürülməsi mərhələsi gəlir. İş prosesi 2-3 ay, bəzən material zərif olanda həcmdən asılı olaraq daha uzun müddət də davam edə bilər. Təkəlduzun bütün növlərində işlərim, tikmələrim var. Miniatür işləməyi çox sevirəm. İpək saplarla işlənən əsərlər daha keyfiyyətlidir, muncuqla işlənənlər isə gözə daha xoş gəlir".

Nəbati və həndəsi naxışları al-əlvan parçaların üzərinə köçürən Mehriban xanımın verdiyi məlumata görə, materialına və işlənmə texnikasına görə bədii tikmənin 13 növü var: "Güləbətin, muncuqlu, pilək, tortikmə, məxmərtel, iynədabanı, quşgözü - onu bəzən cülmə və ya cinağı tikmə də adlandırırlar, sırımatikmə, doldurma, sanama və oturtma tikmə. Onların hər birinin öz tikilmə texnikası var. Məsələn, qızılı saplarla işlənilən güləbətin tikmədən daha çox saraylarda, əsasən geyimlərin yaxalığında və qolunda, kürək və çiyinlərində istifadə olunur, sanamadan süfrələrdə, doldurma tikmələrdən balış üzü, pərdə və məişət əşyalarının bəzədilməsində istifadə olunub".

Onun dediyinə görə, bunlardan başqa rəngli parçaların müxtəlif üsullarla bir-birinə tikilməsindən də istifadə olunur və buna qurama deyilir.

"Bu tikmə növünün bir sıra özəllikləri var. İlk növbədə bu tikmə növündə eskiz parçanın arxasından çəkilir. İynə arxadan batırılmalı və arxadan çıxarılmalıdır ki, ön tərəfdə saplarla qabarıq ilmələr əks oluna bilsin. Eskizin köçürülməsi və tikilməsi prosesini bir növ güzgü effekti ilə müqayisə edə bilərik. Digər bir özəlliyi ondan ibarətdir ki, tikiləndən sonra qarşı tərəfdə xaotik mənzərə əmələ gəlir. Növbəti mərhələdə xaotik, qarmaqarışıq vəziyyətdə olan ilmələri maqqaşla bir-bir səliqəyə salmaq və öz yerinə oturtmaq lazım gəlir. İlmələr nəinki bir, hətta yarım millimetr yerini dəyişərsə, onda cizgi və elementlər istədiyin mənzərəni yaratmır. Bir millimetr kvadrata 9 ilmə yerləşdirmək mümkündür, işin xarakterindən asılı olaraq hətta 12 ilmə də yerləşdirmək olar. Təəssüf ki, bu tikmə növünün təlimi və tədrisi haqqında müasir incəsənətdə heç bir məlumat yoxdur", - deyə Mehriban xanım bildirir.

Qeyd edək ki, o, məxmərtel üsulu ilə 30-dan artıq nadir tikmə hazırlayıb. Həmin təsvirləri bədii tikmənin bu növündə ilk və nadir işlər hesab etmək olar.

Portret, miniatür və mənzərə janrlarında əsərlər yaradan tikməçi rəssam bu sənətin tədris olunmamasından da narahatlıq ifadə edir: "Necə olur ki, indi qobelen sənəti öyrədilir, tədris edilir, amma yüz illər boyu nənələrimizin məşğul olduğu bədii tikmə sənəti unudulur? İndi bu qədim sənətlə barmaqla sayılacaq qədər məşğul olan var. Nənələrimizin ilmə-ilmə toxuyub bu günə qədər gətirdikləri bədii tikmə sənəti indi ilim-ilim itmək təhlükəsi ilə üz-üzədir".

Təkəlduzun müxtəlif növlərində 200-dək əsəri olan Mehriban Xəlilzadə "Neyron" tədris mərkəzində həftənin iki günü bu sahəyə maraq göstərən gənclərə sənətin sirlərini öyrədir, onları müxtəlif sərgilərə, muzeylərə apararaq bədii tikmə nümunələri ilə tanış edir. Təəssüf ki, onların arasında öz taleyini bu sənətə bağlayanlar olmasa da, həvəskar səviyyədə davam etdirənlər olur.

Mehriban xanım deyir: "Bizə mütləq daimi bir məkan lazımdır. Vaxtilə Binəqədi rayonunda yaradıcılıq emalatxanası verilmişdi və orada daimi ekspozisiyamız var idi. O vaxt bu sənətlə maraqlananlarla orada görüşür, sərgilərdə iştirak edirdik, lakin həmin bina 2017-ci ildə söküldüyünə görə oradakı emalatxanada da sıradan çıxdı. İndi xeyli çətinliklərlə üz-üzəyik. Mən bu tikmə növünü təbliğ etmək, yaşatmaq, gələcək nəsillərə ötürmək istəyirəm. Bununla əlaqədar son vaxtlar "tekalduz.com" saytı yaratmışam və orada bədii tikmənin tarixi, növləri, bu sahədə fəaliyyət göstərən ayrı-ayrı sənətkarlar haqqında olan materialları alman və ingilis dillərinə tərcümə edib yerləşdirəcəyik. Ölkəmizdə Bədii Tikmə Muzeyi yaratmaq istəyirəm. Belə bir mərkəzin yaranması tikmənin saxlanılması, qorunması və gələcək nəsillərə ötürülməsini təmin edərdi. Muzeydə tədrislə də məşğul olmaq, master-klaslar təşkil etmək olar".

***Süleyman QARADAĞLI***